**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NƏSİBOVA LƏTİFƏ MƏHƏMMƏD QIZI**

# AZƏRBAYCANLA ƏRƏB ÖLKƏLƏRİ ARASINDA XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**İxtisas: 5304.01– "İqtisadi fəaliyyət növləri"**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B a k ı – 2016**

Dissertasiya işi Azərbaycan Dövlət Neft və Sənaye Universitetində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | İqtisad elmləri doktoru, professor |
| | **Vahid Tapdıq oğlu Novruzov** |
| **Rəsmi opponentlər:** | İqtisad elmləri doktoru, professor |
| | **Sabir Qəmbər oğlu Cümşüdov** |
| | İqtisad üzrə fəlsəfə doktoru, |
| | **Ramil Teyyub oğlu Əliyev** |
| **Aparıcı təşkilat:** | Azərbaycan Kooperasiya Universiteti |

Dissertasiya işinin müdafiəsi 30 iyun 2016-ci il tarixdə saat 11.00 -da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən D.02.141 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan:Az 1010, Bakı şəhəri, Azadlıq prospekti, 34, ADNSU

Dissertasiya işi ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanasında tanış olmaq olar

Avtoreferat "____" may 2016-ci ildə göndərilmişdir.

**D.02.141 Dissertasiya Şurasının Elmi katibi,**
**texnika elmləri doktoru, professor:** **Ə.M.Əliyev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Beynəlxalq iqtisadi əlaqələrin qloballaşdığı müasir dövrdə istənilən ölkənin sosial-iqtisadi inkişafı xeyli dərəcədə xarici iqtisadi əlaqələrin səviyyəsindən, onun əmtəə strukturundan asılıdır. Xarici iqtisadi əlaqələr milli iqtisadiyyatın formalaşması və inkişafı prosesində qarşıya çıxan problemlərin müvəffəqiyyətli həllində əhəmiyyətli rol oynayır. Dünya təsərrüfatı sisteminə tam hüquqlu üzv kimi daxil olmaqla ölkələr milli iqtisadiyyatlarını inkişaf etdirmək, cəmiyyətin tələbatını tam ödəmək, xalq təsərrüfatının səmərəli strukturunu formalaşdırmaq, qabaqcıl texnika və texnologiya əldə etmək, idarəçilik və təsərrüfatçılıq sahəsində dünyada mövcud olan mütərəqqi təcrübəni mənimsəmək imkanı qazanırlar. Bunlarla yanaşı, xarici iqtisadi əlaqələr, xüsusilə onun bir forması olan xarici ticarət, ölkələrə beynəlxalq əmək bölgüsündə malik olduqları üstünlükləri reallaşdırmaq, bu əlaqələri milli maraqlarla uyğunlaşdırmaq üçün əlverişli imkan və zəmin yaradır. Ona görə də, milli təsərrüfatının beynəlxalq təsərrüfat sisteminə əlverişli inteqrasiyasına nail olmaq, milli iqtisadiyyatın inkişafı üçün beynəlxalq əmək bölgüsünün yaratdığı imkanlardan maksimum faydalanmaq hər bir dövlətin qarşısında duran əsas problemlərdən biri hesab edilir.

Müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolu seçmiş Azərbaycan Respublikası, bir sıra problemlərlə yanaşı, iqtisadi sahədə də çətinliklərlə qarşılaşmışdı. Qarşıya çıxan problemlərin, çətinliklərin həllində xarici iqtisadi əlaqələrin genişləndirilməsinin mühüm rol oynadığına əsaslanan Azərbaycan Respublikası bu sahədə islahatların aparılması məqsədi ilə, qısa müddət ərzində, müvafiq hüququ bazanın yaradılmasını təmin etmişdir. Aparılan islahatlar Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişləndirilməsinə və şaxələndirilməsinə imkan və zəmin yaratmışdır. Nəticədə Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 2014-cü ildə 39462.1 mlyn. ABŞ dollarına çatmışdır ki, bu da 2000-ci ilin müvafiq göstəricisindən (2917.3 mlyn. ABŞ dolları) 13.5 dəfə çoxdur.

Aparılan təhlillər göstərir ki, Azərbaycanın xarici iqtisadi əlaqələrində MDB ölkələri, eləcə də Qərbi Avropa ölkələri, Çin Xalq Respublikası və ABŞ daha yüksək xüsusi çəkiyə malikdirlər. Ərazicə və milli metalitet baxımından ölkəmizə daha yaxın olan çoxsaylı ərəb ölkələri ilə iqtisadi əlaqələrin səviyyəsi isə mövcud olan potensialla müqayisədə qənaətbəxş hesab edilə bilməz. Belə ki, Azərbaycanın xarici iqtisadi əlaqələr üzrə ərəb ölkələri arasında ən iri tərəfdaşları olan Tunus, Iraq Respublikası, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Liviya Ərəb Cümhuriyyəti, Səudiyyə Ərəbstanı və Əlcəzair ilə xarici ticarət dövriyyəsinin həcmi 2014-cü ildə ölkəmizin xarici ticarət dövriyyəsinin, müvafiq olaraq, 1,1 %-nə; 0,6%-nə; 0,23%-nə; 0,17%-nə, 0,07%-nə, 0,04%-nə və 0,002%-nə bərabər olmuşdur.

Bu vəziyyət Azərbaycanla ərəb ölkələri arasında xarici iqtisadi əlaqələrin səviyyəsinin yüksəldilməsi məqsədi ilə mövcud olan potensialdan daha səmərəli istifadə edilməsi və bunun üçün kompleks tədbirlərin həyata keçirilməsi zərurətini doğurmuşdur.

Beləliklə, Azərbaycanla ərəb ölkələri arasında xarici iqtisadi əlaqələrin genişləndirilməsi, onların əmtəə strukturunun təkmilləşdirilməsi, meydana çıxan problemlərin, onların aradan qaldırılması yollarının araşdırılması Azərbaycanla bu ölkələr arasında xarici iqtisadi əlaqələrinin inkişafı istiqamətlərinin müəyyən edilməsi baxımımdan çox önəmli problemlərdir və bu nöqteyi –nəzərdən tədqiqatın mövzusu böyük aktuallıq kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi.** Xarici iqtisadi əlaqələrin formalaşması və inkişafı problemlərinin aktual nəzəri və praktiki məsələləri Azərbaycanın iqtisadçı alimlərindən: Z.Ə.Səmədzadənin, A.Ə.Əliyevin, Ə.H. Ələkbərovun, A.Vəliyev, M.Ə.Vəliyevin, Ə.M.Həsənovun, Ş.H.Hacıyevin, G.Ə.Gəncəliyevin, İ.A.Kərimlinin, M.Meybullayevin, R.T.Həsənovun, Ə.Q.Əlirzayevin, Q.S.Süleymanovun, C.H.Kərimovun, A.T.Orucovun, X.Ə.Məmmədovun, S.Q.Mirzəyevin, Ə.İ.Bayramovun və s. əsərlərində öz geniş əksini tapmışdır.

Xarici ölkələrinin iqtisadçı alimlərindən: T.Man, J.B.Kolber, V.Petti, A.Smit, D.Rikardo, C.St.Mill, P.Samuelson, B.Olin,

E.Hekşer, Q. Haberler, C.Kindelberqer, R.Vernon, L.Uels, S.Linder, K.Marks, C.M.Keyns, M.Poter, A.S Bulatov, İ.B.Buqlay, C.Saks, A.Kiriyev, V.K.Lomakin, N.N.Liventsev, R.İ.Xasbulatov, S.V.Fomişin və başqaları öz əsərlərində xarici iqtisadi əlaqələrin formalaşması və tənzimlənməsinin nəzəri və metodoloji məsələlərinin tədqiqinə xüsusi diqqət ayırmışlar.

Eyni zamanda, qeyd etmək lazımdır ki, xarici iqtisadi əlaqələrin inkişafı və tənzimlənməsi məsələləri BMT-nın Ticarət və İnkişaf üzrə Konfransının, Ümumdünya Ticarət Təşkilatının, Dünya Bankının, Beynəlxalq Ticarət Mərkəzinin, Ticarət və Davamlı İnkişaf üçün Beynəlxalq Mərkəzin və digər müvafiq beynəlxalq təşkilatların mütəxəssisləri tərəfindən mütəmadi olaraq tədqiq edilir.

Sadalanan tədqiqat işlərinin elmi və praktiki əhəmiyyətini azaltmadan qeyd etmək lazımdır ki, indiyə qədər ərəb islam dövlətlərinin xarici iqtisadi əlaqələrinin spesifik xüsusiyyətləri, bu ölkələrin Azərbaycanla xarici iqtisadi əlaqələri və onların perspektivləri kompleks şəkildə tədqiq edilməmişdir. Məhz bu zərurət dissertasiya işinin mövzusunun seçilməsini şərtləndirmiş, tədqiqatın məqsədini və vəzifələrini müəyyən etmişdir.

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi Azərbaycan Respublikasının ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin mövcud vəziyyətinin və xüsusiyyətlərinin öyrənilməsi əsasında onların forma və mexanizmlərinin təkmilləşdirilməsinə, bu əlaqələrin inkişafına yönəlmiş əməli təkliflərin və tövsiyələrin hazırlanmasından ibarətdir. Bu məqsədin həyata keçirilməsi üçün tədqiqat işinin qarşısında aşağıdakı vəzifələr qoyulmuş və məntiqi ardıcıllıqla həll edilmişdir:

- xarici iqtisadi əlaqələrin təşkilinin və tənzimlənməsinin nəzəri-metodoloji əsaslarının dünya təcrübəsi əsasında öyrənilməsi və sistemləşdirilməsi;
- xarici iqtisadi əlaqələrin milli iqtisadiyyatının inkişafında rolu və əhəmiyyətinə dair nəzəri baxışların qiymətləndirilməsi;
- xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsinin prinsiplərinin və xüsusiyyətlərinin araşdırılması;

• Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi;

• Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin əmtəə quruluşunun və xüsusiyyətlərinin öyrənilməsi;

• Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin yaxşılaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsi və bu istiqamətlər üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin perspektivləri, predmetini isə Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin müasir vəziyyətinin tədqiqi, onların yaxşılaşdırılmasının əsas istiqamətlərinin müəyyənləşdirilməsi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** iqtisad elminin klassiklərinin, Azərbaycanın və xarici ölkələrin müasir görkəmli alimlərinin xarici iqtisadi əlaqələrin formalaşması, inkişafı və tənzimlənməsi problemləri haqqında nəzəriyyələri, elmi tədqiqatları, nəzəri və praktiki fikirləri, elmi əsərləri, xarici ölkələrin tədqiq edilən problemə dair təcrübələri təşkil edir. Dissertasiya işi yerinə yetirilərkən tədqiqatın mövzusuna dair Azərbaycan Respublikasının qanunlarına, Respublika Prezidentinin fərman və sərəncamlarına, hökümətin qərarlarına və normativ sənədlərə istinad edilmişdir.

Tədqiqatın yerinə yetirilməsi prosesində müqayisə, analitik ümumiləşdirmə, sistemli təhlil, riyazi-statistik təhlil və s. metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika və Gömrük Komitələrinin hesabatları, bülletenləri; İqtisadiyyat və Sənaye, Xarici İşlər Nazirliklərinin məlumatları və s. təşkil edir.

**Tədqiqatın elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

• Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin perspektivləri ilk dəfə olaraq tədqiq edilmişdir;

• xarici iqtisadi əlaqələrin təşkilinin və tənzimlənməsinin nəzəri-metodoloji əsasları dünya təcrübəsi əsasında öyrənilmiş və sistemləşdirilmişdir;

• qloballaşan müasir dünyada xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsinin prinsipləri və xüsusiyyətləri müəyənləşdirilmişdir;

• Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin dinamikası, ticarət əlaqələrinin əmtəə quruluşu təhlil edilmiş və qiymətləndirilmişdir;

• Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin formalaşmasına
təsir edən amillər müəyyənləşdirilmişdir;

•Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin təşkili və tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi üçün təklif və tövsiyələr irəli sürülmüşdür.

• Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin yaxşılaşdırılması istiqamətləri müəyyənləşdirilmiş və bu istiqamətlər üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr irəli sürülmüşdür.

**İşin praktiki əhəmiyyəti** ondan ibarətdir ki, onun əsas nəzəri müddəaları, nəticələri və irəli sürülən təkliflər, tövsiyələr Azərbaycanın xarici iqtisadi əlaqələrinin təkmilləşdirilməsinin və şaxələndirilməsinin keyfiyyətcə yeni mərhələyə qaldırmağa imkan verir.

Dissertasiyada irəli sürülən təkliflər Azərbaycanın xarici iqtisadi əlaqələrinin formalaşması, tənzimlənməsi və təkmilləşdirilməsi məqsədi ilə konkret proqramların hazırlanmasında, xarici iqtisadi fəaliyyətlə bağlı problemlərinin gələcəkdə daha geniş tədqiq edilməsində, iqtisadi ədəbiyyat və dərsliklərin hazırlanmasında istifadə edilə bilər.

Dissertasiya işinin materiallarından və nəticələrindən Azərbaycan Dövlət Neft və Sənaye Universitetində, ölkəmizin digər ali məktəblərində "Dünya iqtisadiyyatı", "Beynəlxalq iqtisadi münasibətlər", "İqtisadiyyatın dövlət tənzimlənməsi", "Gömrük işinin

təşkili və idarə edilməsi", "Beynəlxalq ticarət" fənlərinin tədrisində istifadə edilə bilər.

**Dissertasiya işinin nəticələrinin çap edilməsi və aprobasiyası:** Tədqiqat işinin əsas nəticələri 1 tezis və 6 məqalədə öz əksini tapmışdır. Onlardan ikisi Kiyev şəhərində rus dilində nəşr olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, səkkiz paraqraf, nəticə və təkliflərdən, ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin həcmi 178 səhifədir. İşdə 10 cədvəl, 2 şəkil, 1 əlavə, 137 adda ədəbiyyatın siyahısı verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, nəzəri-metodoloji əsasları, informasiya bazası göstərilir, işin elmi yenilikləri, təcrübi əhəmiyyəti, apobasiyası və tətbiqi şərh edilir.

Dissertasiyanın **"Xarici iqtisadi əlaqələrin təşkilinin və tənzimlənməsinin nəzəri-metodoloji əsasları"** adlanan birinci fəsilində xarici iqtisadi əlaqələrin təşkilinin nəzəri əsasları klassik iqtisadçıların nəzəriyyə və baxışları, müasir dövrün dünya və ölkə iqtisadçı alimlərin fikir və mülahizələri öyrənilib ümumiləşdirilməklə, elmi və elmi-təcrübəvi əhəmiyyəti olan bir sıra nəticələr çıxarılmış, tədqiq edilən məsələlərə dair müəllifin mövqeyi açıqlanmışdır. Bu fəsildə eləcə də, xarici iqtisadi əlaqələrin milli iqtisadiyyatın inkişafında rolu və əhəmiyyəti tədqiq edilmiş, xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsinin prinsipləri və xüsusiyyətləri araşdırılmışdır.

Müəllifin fikrincə, xarici iqtisadi əlaqələrin ölkənin iqtisadi inkişafında oynadığı rolun, əhəmiyyətinin əsaslandırılması, xarici iqtisadi əlaqələrin səmərəli formalarının seçilməsi bu əlaqələrin nəzəri əsaslarını təşkil edən iqtisadi nəzəriyyələrin araşdırılmasını, müvafiq nəticələrin çıxarılmasını və tətbiqini tələb edir. Dissertasiya işində xarici iqtisadi əlaqələrə dair mövcud nəzəriyyələri araşdıran

müəllif belə qənaətə gəlmişdir ki, beynəlxalq iqtisadi əlaqələrin, xüsusilə də xarici ticarətin, formalaşmağa başladığı ilkin dövrdən bu günə kimi metodoloji cəhətdən iki əsas istiqamət mövcud olmuşdur: a) xarici iqtisadi (ticarət) əməliyyatlarının təşkili və sərbəst həyata keçirilməsi üçün optimal yolların seçilməsi; b) xarici ticarətin həyata keçirilməsində dövlətin rolunun müəyyən edilməsi. Bunlara əsaslanaraq müəllif belə nəticəyə gəlmişdir ki, iqtisadi münasibətlərin qloballaşdığı müasir dövrdə hər bir ölkənin və təsərrüfat subyektinin beynəlxalq ixtisaslaşmada və beynəlxalq ticarətdə malik olduğu üstünlüyü müəyyən etmək, onun səbəblərini aydınlaşdırmaq və bu üstünlükdən səmərəli istifadə etmək üçün xarici iqtisadi əlaqələrin bütün nəzəriyyələrindən kompleks şəkildə istifadə etmək, onları milli iqtisadiyyatın inkişafı şəraitinə uyğun tətbiq etmək lazımdır.

Xarici iqtisadi əlaqələrin həm milli iqtisadi problemlərin həllində, həm də ölkələr arasında münasibətlərin yaradılmasında mühüm vasitə olduğunu nəzərə alan müəllif, dissertasiya işində bu əlaqələrin Azərbaycanın milli iqtisadiyyatın inkişafına təsirini araşdırmışdır. Təhlil göstərmişdir ki, 1997-1999-cu illərdə xarici iqtisadi əlaqələrin mühüm forması olan xarici ticarətin ümumi həcmi artsa da, idxalın ixracı üstələməsi nəticəsində Azərbaycanın xarici ticarət əlaqələrində mənfi saldo yaranmışdı. Aparılan islahatlar nəticəsində 2001-2008-ci illər ərzində Azərbaycanın xarici ticarət əlaqələrinin ilbəil artımı davam etmiş (2002-ci ildə ixracın həcmindəki azalma istisna olmaqla) və bu illər ərzində artım 14 dəfədən çox olmuşdur. 2008-ci ilin sonlarından etibarən dünyanı bürüyən maliyyə böhranı 2009-cu ildə Azərbaycanın xarici ticarət dövriyyəsinin, eləcə də həm idxalın, həm də ixracın həcminin azalmasına səbəb olmuşdur: 2009-ci ildə ixracın həcmi 2008-ci ilə nisbətən 2.23 dəfə, idxalın həcmi-14.7%, ticarət dövriyyəsini həcmi isə-təqribən iki dəfə azalmışdır.

2010-cu ildən etibarən dünya maliyyə böhranının nisbətən sabitləşməsi və xarici ticarət əlaqələrinin genişləndirilməsi sahəsində görülən tədbirlər Azərbaycanın xarici ticarət dövriyyəsinin ümumən

artımına səbəb olsa da, 2013-cü ildə 2008-ci ilin səviyyəsinə çata bilməmişdir. Belə ki, 2013-cü ildə Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 43551.2 mlyn ABŞ dolları təşkil etmişdir ki, bu da 2008-ci ilin eyni göstəricisinin (54926.0 mlyn ABŞ dolları) 79.3 %-ni təşkil edir.

Dünya bazarında xam neftin satış qiymətinin azalmağa doğru meyl etməsi 2014-cü ildə də Azərbaycanın ixracının, beləliklə də, xarici ticarət dövriyyəsinin həcminin azalmasına səbəb olmuşdur. Nəticədə 2014-cü ildə ildə xarici ticarət dövriyyəsin həcmi (39462.1 mlyn ABŞ dolları) 2013-cü illə müqayisədə 9.4% azalmışdır.

Xarici iqtisadi əlaqələrin formalaşmasında və inkişafında beynəlxalq iqtisadi təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi xüsusi rol oynayır. Müstəqillik əldə etdikdən sonra xarici iqtisadi əlaqələrin inkişafına önəm verən Azərbaycan beynəlxalq iqtisadi təşkilatlarla əlaqələr yaratmış və inkişaf etdirmişdir. Dissertasiya işində müəllif Azərbaycanın beynəlxalq iqtisadi təşkilatlarla, eləcə də Müstəqil Dövlətlər Birliyi (MDB) və qitələr üzrə xarici ticarət əlaqələrini təhlil etmişdir. Təhlil göstərmişdir ki, 1995-2013-cü illər ərzində Azərbaycanın MDB ölkələri ilə idxalının həcmi 12.2 dəfə, ixracının həcmi- 6.3 dəfə artmışdır. 2013-cü ildə Azərbaycanın MDB ölkələri ilə idxalının həcmi həmin ildə onun bütün idxalının 23.8 %-nə, ixracının həcmi isə-6.3%-nə bərabər olmuşdur.

1995-2013-cü illər ərzində Azərbaycanın Avropa İttifaqı (Aİ) ilə idxalının həcmi 32.1 dəfə, ixracının həcmi-112 dəfə artmışdır. Qeyd edilən müddət ərzində Azərbaycanın QDİƏT ilə xarici ticarət dövriyyəsinin həcmi 14 dəfə; İƏT ilə- 4.88 dəfə; GÜAM ilə-10.9 dəfə; OPEK ölkələri ilə-11.1 dəfə; İKT ilə-7.9 dəfə; ASİƏT ilə -49.5 dəfə; AATA-ya daxil olan ölkələrlə- 8.7 dəfə; ASEAN ölkələi ilə-14.4 dəfə; İƏİT ölkələri ilə-57.2 dəfə artmışdır.

Azərbaycan dünyanın bütün qitələrinə daxil olan ölkələrlə iqtisadi əlaqələrə malikdir. Azərbaycanın əsas ticarət tərəfdaşları Avropa qitəsində yerləşir. İkinci yerdə-Asiya, üçüncü yerdə-Amerika

qitəsində, üçüncü yerdə-Afrikada yerləşən ölkələr, sonuncu yerdə Okeaniya ölkələri gəlir.

Xarici iqtisadi əlaqələrin mühüm formaları olan kapitalın hərəkətinin, nəqliyyat xidmətlərinin, beynəlxalq turizmin, əmək resurslarının hərəkətinin milli iqtisadiyyatın inkişafında oynadığı rolu nəzərə alan müəllif, dissertasiya işində, bu sahələrdə Azərbaycanın xarici ölkələrlə əlaqələrini geniş təhlil etmişdir. Araşdırmalar göstərmişdir ki, bu əlaqələrin genişləndirilməsi istiqamətində görülən tədbirlər, Azərbaycanın milli iqtisadiyyatının inkişafına təkan vermiş və bu, ümumi daxili məhsulun həcminin sürətlə artırılmasına imkan yaratmışdır: 2000-2013-cü illər ərzində Azərbaycanın ÜDM-lu 12.2 dəfə artmışdır.

Aparılan tədqiqatlar müəllifə aşağıdakı nəticələrə gəlməyə imkan vermişdir:

• xarici iqtisadi əlaqələrin inkişafı ilə milli iqtisadiyyatın inkişafı arasında birbaşa əlaqə vardır;

• ölkələr xarici iqtisadi əlaqələrin formalarından öz ehtiyaclarına və imkanlarına müvafiq olanı (olanları) seçməyə meyl göstərirlər;

• milli iqtisadiyyatın inkişafında xarici iqtisadi əlaqələrin əsas forması olan xarici ticarət, xüsusilə də texnologiya mübadiləsi, aparıcı rol oynayır;

• əlverişli şərtlərlə xarici kapitalın cəlb edilməsi ixracat yönümlü milli iqtisadiyyatın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir;

• beynəlxalq iqtisadi inteqrasiya birliklərində iştirak etmək milli iqtisadi siyasəti üzv ölkələrin iqtisadi siyasətləri ilə uzlaşdırmağa və milli iqtisadiyyatın inkişafı üçün bu birliklərin yaratdığı imkanlardan maksimum istifadə etməyə imkan yaradır.

Beynəlxalq təcrübə göstərir ki, milli iqtisadiyyatın inkişafına imkan və zəmin yaradan xarici iqtisadi əlaqələrin qurulması beynəlxalq hüquq normalarına, mütərəqqi dünya təcrübəsinə əsaslanan, dünya təsərrüfatı sisteminin və beynəlxalq iqtisadi münasibətlərin formalaşması və inkişafı xüsusiyyətlərini nəzərə

alan çevik dövlət tənzimlənməsi sisteminin yaradılması sayəsində mümkündür. Bunu nəzərə alan müəllif, müasir şəraitdə xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsinin prinsiplərini və xüsusiyyətlərini, bu sahədə klassik və müasir dövrün iqtisadçı alimlərinin fikir və mülahizələrini, Azərbaycandakı vəziyyəti araşdırmışdır. Müəllifin fikrincə, beynəlxalq aləmdə gedən proseslər, xarici iqtisadi əlaqələrin xüsusiyyətlərində baş verən dəyişikliklər vaxtaşırı olaraq bu fəaliyyət formasının dövlət tənzimlənməsinin milli sistemində də müəyyən dəyişikliklərin edilməsini tələb edir. Müəllif hesab edir ki, xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsinin milli sistemi formalaşdırılarkən aşağıdakı xüsusiyyətlər nəzərə alınmalıdır:

• xarici iqtisadi əlaqələrin tənzimlənməsini həyata keçirən dövlət orqanlarının səlahiyyət hədlərinin, bu əlaqələrin subyektlərinin hüquq və vəzifələrinin müvafiq qanunlarla dəqiq müəyyənləşdirilməsi;

• xarici iqtisadi əlaqələrin tənzimlənməsi sisteminin hüquqi, inzibati və təşkilati-texniki əsaslarının uyğunlaşdırılması və eyniləşdirilməsi, tənzimləmənin həyata keçirilməsi mexanizminin sadələşdirilməsi;

• beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq edərkən ölkənin iqtisadi təhlükəsizliyinin və milli mənafelərin təmin olunması üçün müvafiq güzəştlərin əldə edilməsi;

• xarici tərəfdaşların etibarının qazanılması üçün proqnozlaşdırıla bilən, ardıcıl xarici ticarət siyasətinin aparılması;

• xarici iqtisadi əlaqələr sahəsində aparılan islahatların milli iqtisadi islahatlar və beynəlxalq təsərrüfat sistemində gedən proseslərlə uzlaşdırılması;

• xarici iqtisadi əlaqələr qurularkən ölkənin ixrac imkanlarının və idxala olan tələbatının obyektiv qiymətləndirilməsi.

Dissertasiyanın **“Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin mövcud vəziyyəti və xüsusiyyətləri”** adlanan ikinci fəsilində geniş statistik, uçot və hesabat matıriallarının toplanıb işlənməsi və təhlili, eləcə də Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrini tənzimləyən hüquqi sənədlərin araşdırılması

əsasında Azərbaycanın bu ölkələrlə xarici iqtisadi əlaqələrinin hüquqi mexanizmi; Azərbaycanın xarici iqtisadi əlaqələrində ərəb ölkələrinin yeri və rolu; Azərbaycanın ərəb ölkələri ilə xarici ticarət əlaqələrinin əmttəə quruluşu və xüsusiyyətləri təhlil edilmiş və qiymətləndirilmişdir.

Xarici iqtisadi əlaqələrin səmərəli təşkilində ölkələr arasında bu əlaqələri tənzimləyən hüquqi sənədlərin mövcudluğunun əsas şərtlərdən biri olduğunu əsas götürən müəllif, dissertasiya işində Azərbaycanın "Ərəb Dövlətləri Liqası" (ƏDL) adlı beynəlxalq təşkilatda birləşmiş bütün 22 ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin hüquqi mexanizmini araşdırmışdır. Araşdırmalar göstərmişdir ki, Azərbaycanın əksər ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin hüququqi mexanizmi təkmil deyildir və bu Azərbaycanla bu ölkələr arasında xarici iqtisadi əlaqələrin inkişafına mənfi təsir göstərir.

Aparılan tədqiqatlar göstərir ki, Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələri forma və həcmcə geniş və əhatəli deyildir. Belə ki, Azərbaycan ərəb ölkələri ilə əsasən xarici ticarət və az saylı ölkə ilə kapital ixracı və turizm sahəsində əməkdaşlıq edir. Azərbaycanla ərəb ölkələri arasında əmək resurslarının hərəkəti (səfirliklərin və bir neçə şirkətin azsaylı əməkdaşları xaric), nəqliyyat xidmətləri, sosial-mədəni xidmətlər, texnologiyaların ixracı və idxalı, valyuta ticarəti sahələrində əməkdaşlıq demək olar ki, yox səviyyəsindədir.

Azərbaycanın ərəb ölkələri ilə 2014-cü ildə xarici ticarət dövriyyəsinin həcmi cəmi 899476.6 min ABŞ dollarına, o cümlədən idxal- 84041.1 min ABŞ dollarına, ixrac-815435.5 min ABŞ dollarına, xarici ticarət saldosu isə müsbət 731394.4 min ABŞ dollarına bərabər olmuşdur. Həmin ildə ərəb ölkələrinin Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 2.28 faiz, o cümlədən idxalda 0.91%, ixracda isə 2.69% təşkil etmişdir.

Azərbaycanla BƏƏ, Misir, Səudiyyə Ərəbstanı, Mərakeş Krallığı, Suriya, Livan, İordaniya Tunis və Küveyt dövlətləri ilə investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında ikitərəfli

sazişlər imzalansa da (digər ərəb dövlətləri ilə analoji saziş imzalanmamışdır), onların bir çoxu ilə kapital ixracı sahəsində hələlik əməkdaşlıq edilmir. Səudiyyə Ərəbstanı ilə Azərbaycan arasında kapital ixracının səviyyəsi çox aşağıdır. Kapital ixracı sahəsində ərəb ölkələri arasında Azərbaycanla ən çox əməkdaşlıq edən Birləşmiş Ərəb Əmirliyi olsa da, bu ölkə ilə də kapital ixracının səviyyəsi çox aşağıdır-1995-2013-cü illəri əhatə edən 19 il ərzində BƏƏ-dən azərbaycana cəmi 472.9 milyon ABŞ dolları həcmində, Azərbaycandan BƏƏ-nə isə-33 milyon ABŞ dolları həcmində kapital ixrac edilmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra digər sahələrdə olduğu kimi, turizm sahəsində də ərəb ölkələri ilə əməkdaşlıq etməyə səy göstərir. Ancaq ərəb ölkələri ilə bu sahədə də əməkdaşlığın səviyyəsi çox aşağıdır. Azərbaycan turizm sahəsində əsasən BƏƏ və Misirlə əməkdaşlıq edir. Səudiyyə Ərəbstanı ilə yalnız dini turizm (həcc ziyarəti) əlaqələri vardır. Qafqaz Müsəlmanları İdarəsi Mətbuat Xidmətinin məlumatına görə 2010-cu ildə Azərbaycandan Səudiyyə Ərəbstanına həcc ziyarətinə 2000 nəfər, 2011-ci ildə-2500 nəfər, 2012-ci ildə-2600 nəfər, 2013-cü ildə-3600 nəfər, 2014-cü ildə-4100 nəfər, 2015-ci ildə 3600 nəfər getmişdir.

Azərbaycan ərəb dövlətləri ilə əsasən xarici ticarət sahəsində əməkdaşlıq edir. Azərbaycanın bu dövlətlər ilə idxalının dinamikası Cədvəl 1-də verilmişdir. Cədvəldən 1-dən göründüyü kimi Azərbaycanın:

• ərəb ölkələri sırasında ən iri tərəfdaşları olan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Səudiyyə Ərəbstanı, Misir Ərəb Respublikası ilə idxal əlqələrinin həcmi illər üzrə sabit deyildir və bəzi illər üzrə kəskin fərqlənir;

• İordaniya, Mərakeş, Suriya, İraq, Tunis, Qətər, Livan, Küveyt, Oman ilə idxal əlaqələrinin həcmi azdır, illər üzrə sabit deyildir və kəskin artıb-azalmalarla müşayət olunur;

• Əlcəzair, Liviya, Bəhreyn, Mavritaniya arasında idxal əlaqələrinin həcmi olduqca aşağı və illər üzrə qeyri-sabitdir

## Azərbayacan Dövlətləri üzrə idxalının dinamikası (min ABŞ dolları) Cədvəl 1

| Dövlətlər | I l l ə r | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2 010 | 2011 | 2012 | 2013 | 2014 |
| 1.Bəhreyn | 0.4 | 95.6 | 7.5 | 11.0 | 44.6 | 12.6 | 58.1 | 208.4 | 51.0 | 261.3 | 1.4 |
| 2.BƏƏ | 31162.9 | 33149.1 | 37783.7 | 50075.9 | 64315.5 | 32094.1 | 56644.1 | 95200.7 | 101550.8 | 94818.5 | 61147.2 |
| 3.Cibuti | - | - | - | 0.2 | - | - | - | - | - | - | - |
| 4.Əlcəzair | 1.8 | 8.1 | 7.8 | 25.8 | - | 0.4 | 85.2 | 65.5 | 71.6 | 11.6 | 243.0 |
| 5.İordaniya | 1249.8 | 2051.3 | 1030.1 | 1750.5 | 461.9 | 860.7 | 2453.3 | 3535.2 | 1267.9 | 2071.2 | 954.3 |
| 6.İraq | 15.5 | 980.2 | 269.8 | - | 8.9 | 128.7 | 179.2 | 363.2 | 316.3 | 547.3 | 398.2 |
| 7.Küveyt | 25.5 | 202.1 | 5.8 | 30.3 | 502.4 | - | 704.9 | 52.8 | 177.7 | 56.7 | 406.3 |
| 8.Qətər | 7.5 | 61.2 | 81.9 | 144.0 | 191.5 | 6.2 | 71.7 | 12042.1 | 1312.0 | 360.8 | 16.4 |
| 9.Livan | 117.1 | 28.2 | - | 199.6 | 5691.8 | 38.0 | 382.7 | 844.8 | 269.2 | 997.2 | 1536.0 |
| 10.Liviya Ərəb Cümhuriyyəti | - | - | 85.0 | 150.4 | 2774.5 | 66.5 | - | 1.9 | 5.4 | 874.4 | 910.5 |
| 11.Mavritaniya | - | - | - | 0.4 | - | 127.9 | 1139.9 | 187.3 | 0.2 | 15.5 | 0.6 |
| 12. Mərakeş | 24.3 | 240.3 | 833.6 | 557.7 | 4961.5 | 30.5 | 783.2 | 2544.0 | 6656.2 | 62410.1 | 55.7 |
| 13.Misir | 571.8 | 626.0 | 1311.0 | 2296.9 | 1069.0 | 4354.9 | 36.3 | 2594.1 | 6597.8 | 3422.6 | 2479.9 |
| 14.Oman | 94.4 | 151.8 | 481.7 | 179.7 | 3346.2 | 228.4 | | 152.5 | 163.8 | 166.0 | 78.9 |
| 15.Səudiyyə Ərəbstanı | 926.6 | 1274.6 | 1148.6 | 1376.8 | 1644.3 | 1218.3 | 1568.3<br>4.3 | 391.9 | 23932.5 | 30266.9 | 14531.0 |
| 16.Somali | - | - | - | - | - | - | - | 5.7 | - | - | - |
| 17.Sudan | | - | 0.3 | - | - | - | - | - | - | 130.6 | 65.6 |
| 18.Suriya Ərəb Respublikası | 509.6 | 593.8 | 790.9 | 1268.5 | 1962.5 | 1210.0 | 922.4<br>1752.8 | 1185.8 | 508.6 | 178.1 | 125.6 |
| 19.Tunis | 5.9 | 23.8 | 10.2 | 1.1 | 146.2 | 204.2 | - | 5186.2 | 8152.1 | 355.5 | 1090.5 |
| 20.Yəmən | - | 7.0 | 6.0 | - | - | - | - | - | 6.4 | 1.8 | - |

• Somali, Sudan, Yəmən arasında idxal əlaqələri epizodik xarakter daşıyır;

•son on bir il ərzində Azərbaycan Cibutidən yalnız 2007-ci ildə 0.2 min ABŞ dolları həcmində məhsul idxal etmişdir.

Cədvəl 2-də Azərbaycanın ərəb dövlətləri üzrə ixracının dinamikası verilmişdir. Cədvəl 2-dən göründüyü kimi Azərbaycanın:

• ərəb ölkələri arasında ixrac üzrə əsas tərəfdaşı İraqdır. Bu ölkə, eləcə də, Liviya, Birləşmiş Ərəb Əmirlikləri, Livan, Əlcəzair ilə ixrac əməliyyatlarının həcmi azdır və illər üzrə kəskin fərqlənir;

•2004-2014-cü illər ərzində İordaniyaya, Küveytə, Qətərə, Omana, Səudiyyə Ərəbstanına, Suriya Ərəb Respublikasına, Mərakeşə, Tunisə, Yəmənə, Bəhreynə, Sudana ixracının həcmi cüzi olmuş, bəzi illərdə isə ixrac əməliyyatları ümumiyyətlə həyata keçirilməmişdir. Həmin illərdə Cibuti və Somoli ilə ixrac əməliyyatarı aparılmamış, Mavritaniya ilə bu əlaqələr epizodik xarakter daşımışdır.

Azərbaycanın ərəb ölkələri ilə xarici ticarət əlaqələrinin əmttəə quruluşu və xüsusiyyətlərini tədqiq etmək məqsədi ilə, dissertasiya işində, son beş il ərzində Azərbaycanın bütün ərəb ölkələri ilə xarici ticarət əlaqələrinin əmtəə quruluşu, onun illər üzrə dəyişmə meyllərini təhlil edilmişdir. Aparılan təhlillər göstərir ki:

• BƏƏ-dən başqa digər ölkələrlə ticarət əlaqələrinin əmtəə quruluşu geniş deyildir;

• bu ölkələrlə həm idxalın, həm də ixracın əmtəə quruluşu illər üzrə qeyri-sabitdir və bəzi illərdə kəskin fərqlənir;

• ərəb ölkələrindən idxal edilən, eləcə də bu ölkələrə ixrac edilən əmmtəələrin arasında yüksək elm və əmək tutumlu, texniki tərəqqinin son nəticələrinə və texnoloji yeniliklərə əsaslanan əmtəələr yoxdur;

•Azərbaycan ərəb ölkələrindən əsasən ərzaq malları, keyim və trikotaj məmulatları; maye halında propan və digər qazlar, hidrogen, azot, oksigen; kimya sənayesi məhsulları; kağız və karton; plastik kütlədən, rezindən, ağacdan, kağızdan, qara metaldan hazırlanmış müxtəlif məhsullar; dəftərxana və çap ləvazimatları; mobil telefon

Azərbaycan ərəb dövlətləri üzrə ixracının dinamikası (min ABŞ dolları) cədvəl 2

| Dövlətlər | İllər | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2 010 | 2011 | 2012 | 2013 | 2014 |
| 1.Bəhreyn | - | 5.0 | 3.5 | 4.9 | 7.1 | - | 509.8 | 7.9 | 15.3 | 17.0 | 21.8 |
| 2.BƏƏ | 8047.6 | 15429.8 | 11620.5 | 4716.1 | 32217.1 | 20206.2 | 14913.0 | 13756.7 | 14290.9 | 8588.7 | 4322.7 |
| 3.Cibuti | - | - | - | - | - | - | - | - | - | - | - |
| 4.Əlcəzair | 0.3 | 1.1 | 4.2 | - | 31402.4 | 384.9 | 39486.6 | 2242.3 | 2866.9 | 976.6 | 673.2 |
| 5.İordaniya | 4.1 | - | - | 137.9 | - | 264.9 | 20.1 | 57.8 | 44.8 | 53.6 | 39.6 |
| 6.İraq | 3564.0 | 10371.5 | 11993.6 | 33799.2 | 59635.8 | 47233.4 | 31320.1 | 99096.0 | 418427.1 | 353641.1 | 236590.0 |
| 7.Küveyt | - | - | 2.2 | - | - | 666.6 | 19.1 | 60.1 | 13.7 | 15.5 | 27.0 |
| 8.Qətər | 5.7 | - | 120.0 | 10.1 | 4.6 | 1.3 | 63.2 | 24.3 | 1524.6 | 2099.7 | 330.7 |
| 9.Livan | 15.3 | 4452.8 | 15175.0 | 6003.9 | 14612.1 | 17589.3 | 53555.7 | 32327.8 | 31178.6 | 58.8 | 35091.7 |
| 10.Liviya Ərəb Cümhuriyyəti | - | 396.8 | 28.3 | 61.0 | 33902.5 | 128617.9 | 162229.5 | 0.8 | 142448.0 | 166272.3 | 25760.0 |
| 11.Mavritaniya | - | - | 25.4 | - | - | - | - | - | - | - | 2.8 |
| 12.Mərakeş | - | 21.9 | - | - | - | 49305.9 | - | 99243.8 | - | 62394.6 | 38.5 |
| 13.Misir | 567.5 | 38886.9 | 29.8 | 30.4 | 35048.8 | 14312.2 | 108438.9 | 161089.0 | 24463.6 | 58423.4 | 91528.0 |
| 14.Oman | - | - | 370.5 | 13.5 | 0.6 | 30.1 | 30.3 | 4226.2 | 1709.2 | 4426.0 | 20.9 |
| 15.Səudiyyə Ərəbstanı | 0.1 | 62.8 | 1.5 | - | 115.7 | 1175.3 | 143.8 | 10559.9 | 89.0 | 55.8 | 128.5 |
| 16.Somali | - | - | - | - | - | - | - | - | - | - | - |
| 17.Sudan | - | 108.7 | 20.0 | 1160.0 | 340.0 | 5.3 | - | - | 11.3 | 5.2 | 69.1 |
| 18.Suriya | 6621.6 | 287.6 | 5.1 | 18057.2 | 13.4 | 13.0 | 109.6 | 83.9 | 13.0 | - | - |
| 19.Tunis | 227.5 | - | 15423.4 | 160.6 | - | - | 2085.5 | - | 247233.3 | 186845.5 | 420617.6 |
| 20.Yəmən | 2219.4 | 3394.5 | 2239.2 | - | 35.4 | - | - | - | 107.5 | 113.8 | 174.0 |

aparatları; surətçıxarma və faksmil aparatları, portativ hesablama maşınları; dərman vasitələri; səthi-aktiv vasitələr; keramika məhsulları; ayaqqabılar; daxiliyanma mühərriklərində yanacaq və yağların süzülməsi süzülməsi üçün avadanlıqlar; qara metallardan elektrik izolyasiyası olmayan sarınmış məftillər, troslar; kənd təsərrüfatı məhsulları; metallurgiyada istifadə olunan polad qəlblər; və s. idxal edir;

• Azərbaycandan ərəb ölkələrinə əsasən reaktiv mühərriklər üçün kerosin yanacağı; antifrizlər və donmaya qarşı hazır mayelər; etilen polimerindən, rezindən, qara metaldan hazırlanmış məhsullar; müxtəlif təyinatlı nasoslar; armaturlar; qurğuşun, mis və sink əsasında emal olunmamış ərintilər; qadınlar və kişilər üçün geyim əşyaları, müxtəlif toxuculuq məhsulları; emal olunmuş daşlar, gipsdən, keramikdən, şüşədən hazırlanmış məhsullar; yer və tunel qazan maşınların hissələri; ağac və mantar emalı üçün dəzgahlar; xüsusi təyinatlı mexaniki qurğular və maşınların hissələri; ağır destilyatlar və ya digər məqsədlər üçün qazoyllar; müxtəlif kimya sənayesi məhsulları; çınqıl, qırma daş və ya doğranmış daş, xırda çay daşı; ətriyyat və əczaçılıqda işlənən bitkilər; şüşə liflərdən hazırlanan məhsullar; ağacdan hazırlanan mebellər və s. ixrac edilir.

Aparılmış tədqiqatlara əsaslanaraq müəllif belə nəticəyə gəlmişdir ki, Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin formalaşmasına və inkişafına bir sıra amillər təsir edir. Bu amillərdən başlıcaları aşağıdakılardır:

• ərəb ölkələrinin mütləq əksəriyyətinin iqtisadi inkişaf səviyyəsinin aşağı olması, onların iqtisadi inkişaf səviyyəsinin bir-birindən köklü şəkildə fərqlənməsi, xalq təsərrüfatının quruluşunda xammal istehsal (hasil) edən sahələrin xüsusi çəkisinin üstünlüyü;

• bu ölkələrin çoxu ilə xarici iqtisadi əlaqələrin yenicə formalaşmağa başlaması və zəif inkişfı;

• ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrin formaca əhatəli və geniş olmaması;

• bu ölkələrlə xarici iqtisadi əlaqələrin həyata keçirilməsi mexanizmlərinin təkmil olmaması, xarici iqtisadi əlaqələrə dair

müqavilələrin və razılaşmaların tam reallaşdırılmaması;

• regionda üzun müddət davam edən qarşıdurmalar, bir sıra ərəb dövlətlərində sosial-siyasi sabitliyin pozulması, vətəndaş müharibələri.

Dissertasiyanın **"Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin yaxşılaşdırılması istiqamətləri"** adlanan üçüncü fəslində Azərbaycanla ərəb ölkələri arasında xarici iqtisadi əlaqələrin təşkili və tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri, eləcə də, Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin inkişaf perspektivləri tədqiq edilmiş və onların reallaşdırılmasına dair konkret təkliflər irəli sürülmüşdür.

Dissertasiyada qeyd olunur ki, ölkənin xarici iqtisadi əlaqələrinin inkişafı ilk növbədə onun təkili formalarından və reallaşdırılması mexanizmlərinin təkmillik səviyyəsindən asılıdır. Ona görə də, xarici iqtisadi əlaqələrin Azərbaycan üçün əlverişli formalarının seçilməsi üçün həm ərəb ölkələrinin yerləşdiyi regionun, həm də, müvafik ölkənin iqtisadiyyatının spesifik xüsusiyyətləri nəzərə alınmalıdır.

Azərbaycanla ərəb ölkələri arasında xarici iqtisadi əlaqələrin hüquqi mexanizmlərinin mövcud vəziyyətini nəzərə alan müəllifin fikrincə, onların təşkilinin və tənzimlənməsinin təkmilləşdirilməsi üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

•xarici iqtisadi əlaqələr üzrə hüquqi sənədlər imzalanmamışdan öncə potensial tərəfdaşın iqtisadiyyatının xüsusiyyətləri, idxal-ixrac potensialı haqqında müfəssəl məlumatlar toplanmalıdır;

• xarici iqtisadi əlaqələrə dair hüquqi sənədlər imzalanarkən tərəflərin iqtisadi mənafeləri nəzərə alınmalı və əlaqələndirilməlidir;

• iqtisadi əlaqələrdə bərabərhüquqlu, qarşılıqlı - faydalı əməkdaşlığa, ortaq maraq və mənafelərin qorunmasına, faydalı əməkdaşlıq üçün perspektiv istiqamətlərin axtarılmasına və həyata keçirilməsinə mütəmadi olaraq səy göstərilməlidir;

• ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin prioritet istiqamətləri müəyyən edilməli və əlaqələrin bu istiqamətlərdə inkişafı təmin edilməlidir;

• ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin təşkilinin yaxşılaşdırılması və tənzimlənməsi üçün bu əlaqələrə təsir edən amillər müəyyən edilməli, nəzərə alınmalı və onlardan istifadənin yaxşılaşdırılması üçün tədbirlər görülməlidir.

Müəllifin fikrincə, Azərbaycanın ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrinin dövlət tənzimlənməsi sistemi təkmilləşdirilməlidir. Bunun üçün:

a) ixrac potensiallı məhsuların istehsalının həyata keçirilməsi stimullaşdırılmalı, bu məqsədlə gömrük siyasətində müəyyən dəyişikliklər edilməli, ölkəyə gətirilən yeni texnika və texnologiyalar gömrük rüsumundan azad edilməlidir;

b) ixrac fəaliyyəti ilə məşğul olan sahibkarlıq strukturlarına dövlət yardımının genişləndirilməsi üçün müvafiq tədbirlər həyata keçirilməlidir;

c) ərəb ölkələrinə ixracın stimullaşdırılması üçün milli ixracatçılara, xüsusilə də hazır sənaye məhsulları ixrac edənlərə, aşağıdakı güzəştlər nəzərdə tutulmalıdır:

- gömrük güzəştləri;
- ixrac əməliyyatlarının həyata keçirilməsi üçün sahibkarlıq strukturlarına güzəştli şərtlərlərlərlə uzunmüddətli kreditlərin verilməsi;
- nisbətən inkişaf etmiş, qarşılıqlı-faydalı siyasi-iqtisadi əlaqələrin mövcud olduğu ərəb dövlətləri ilə azad ticarət sazişlərinin imzalanması imkanları nəzərdən keçirilməli və imkan daxilində reallaşdırlmalıdır;
- Azərbaycan mallarının ixracı üçün daha əlverişli ərəb bazarları müəyyən edilməli, alqı-satqı müqavilələri ilk növbədə bu ölkələrlə imzalanmalı və müvafiq bazarlarda iştirak payının daim genişləndirilməsi üçün tədbirlər görülməlidir;
- ərəb ölkələri ilə ikitərəfli əməkdaşlığın səmərəli təşkili və tənzimlənməsi üçün imzalanmış hüquqi sənədlərin işlək

mexanizmi yaradılmalı, qeyd edilən sənədlərdə nəzərdə tutulan tədbirlərin vaxtında həyata keçirilməsi təmin edilməlidir;

- ərəb dövlətləri ilə xarici iqtisadi əlaqələrin genişlənməsi və tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi üzrə tədbirlər həyata keçirilərkən Azərbaycanın mövcud iqtisadi potensialı, onun inkişaf perspektivləri, beynəlxalq əmək bölgüsündəki yeri, üstünlükləri və daxili tələbatı əsas götürülməlidir;

Müəllifin fikrincə, ərəb ölkələri ilə xarici iqtisadi əlaqələrin sabitliyinin və sonrakı inkişafının təmin edilməsi üçün:

• ərəb dövlətlərinin hər biri ilə xarici iqtisadi əlaqələrin, xüsusilə də xarici ticarətin, mövcud vəziyyəti, onun əmtəə quruluşu obyektiv qiymətləndirilməlidir;

• əsas diqqət ölkənin iqtisadi təhlükəsizliyinin qorunması, milli mənafelərinin təmin olunması üçün müvafiq güzəştlərə (zərurət yarandığı halda - qarşılıqlı) nail olunmasına yönəldilməlidir;

• ərəb dövlətləri ilə xarici iqtisadi əlaqələrin proqnozlaşdırıla bilən olması təmin edilməlidir.

Müəllif hesab edir ki, ərəb ölkələrinin iqtisadi inkişaf səviyyəsi nəzərə alınmaqla Azərbaycanın bu ölkələrlə xarici iqtisadi əlaqələrinin aşağıdakı formalar (istiqamətlər) üzrə inkişaf etdirilməsi məqsədəuyğun olardı:

• yeni texnika və texnologiya sahəsində (xüsusilə BƏƏ, Misir, Qətər, Səudiyyə Ərəbstanı, və Küveyt dövlətləri ilə) əməkdaşlığın qurulması və genişləndirilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsi;

•BƏƏ, Səudiyyə Ərəbstanı, Küveyt, Mərakeş Krallığı, eləcə də, Suriya, Livan, İordaniya, Tunis dövlətləri ilə investisiya sahəsində əməkdaşlığın genişləndirilməsi üçün səylərin artırılması;

• birgə sahibkarlıq fəaliyyətinin təşkili və genişləndirilməsi üçün Azərbaycan və ərəb şirkətlərinin iştirakı ilə hər iki tərəfdə müştərək müəssisələrin yaradılması məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi.

Müəllifin fikrincə, ərəb ölkələrində bir sıra məhsulların istehsalı sahəsində təcrübənin, qabaqcıl texnika və texnologiyanın,

Azərbaycanda xammal mənbələrinin mövcudluğu nəzərə alınmaqla ərəb şirkətlərinin iştirakı ilə, aşağıdakı sahələrdə müştərək müəssisələrin yaradılması məqsədəuyğun olardı:

- inşaat materiallarının istehsalı üzrə: BƏƏ, Misir, Tunis, Mərakeş və Oman şirkətlərinin iştirakı ilə;
- yüngül sənaye (trikotaj, tikiş) məhsullarının istehsalı üzrə: BƏƏ, Suriya və Livan şirkətlərinin iştirakı ilə;
- kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı üzrə: BƏƏ, Misir, Səudiyyə Ərəbstanı, İraq, İordaniya, Oman şirkətlərinin iştirakı ilə;
- kağız və karton istehsalı üzrə: Livan, Bəhreyn və Qətər şirkətlərinin iştirakı ilə;
- avtomobillər üçün rezin şinlərin istehsalı üzrə: Misir şirkətlərinin iştirakı ilə;
- əczaçılıq məhsullarının istehsalı üzrə: Misir və Oman şirkətlərinin iştirakı ilə;
- potativ hesablama maşınlarının istehsalı üzrə: Qətər şirkətlərinin iştirakı ilə;
- daxili yanma mühərriklərinin istehsalı üzrə: Suriya şirkətlərinin iştirakı ilə.

Müəllifin fikrincə, Azərbaycan şirkətlərinin iştirakı ilə ərəb dövlətlərində aşağıdakı məhsulların istehsalı üzrə müştərək müəssisələr yaradıla bilər:

- yer və tunel qazan maşın hissələrinin istehsalı üzrə: BƏƏ-də və Səudiyyə Ərəbstanında;
-elektirk cərəyanının bölüşdürülməsi üçün avadanlıqların istehsalı üzrə: BƏƏ-də;
- xüsusi təyinatlı mexaniki qurğuların və maşınların, eləcə də onların ehtiyat hissələrinin istehsalı üzrə: Səudiyyə Ərəbstanında və Omanda;
- plastik kütlədən məmulatlar istehsalı üzrə: Qətərdə və Tunisdə.

Xarici turizmin inkişafı məqsədlə Azərbaycan ilk növbədə Birləşmiş Ərəb Əmirlikləri, Mərakeş, Misir, Tunis, İordaniya, Qətər,

Bəhreyn və Oman Sultanlığı ilə əlaqələrinin genişləndirilməsinə çalışmalıdır.

Müəllifin fikrincə, Azərbaycanın ərəb ölkələri ilə ticarət əlaqələrinin əmtəə quruluşunun təkmilləşdirilməsi və sabitləşdirilməsi üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

•BƏƏ, İraq, Küveyt, Qətər, İordaniya, Livan, Mərakeş, Misir, Oman, Səudiyyə Ərəbstanı, Suriya və Tunis dövlətləri ilə idxal əlaqələrində (həcminin azlığına, illər üzrə qeyri-sabitliyə, artıb azalmalara rəğmən) son illər üzrə fasilələrin olmadığı nəzərə alınmaqla gələcəkdə bu dövlətlərlə idxal əlaqələrinin genişlənməsi və sabitləşməsi üçün səylər artırmalıdır. Bunun üçün Azərbaycan:

- ilk növbədə qeyd edilən dövlətlərdən idxal etdiyi əmtəələrin quruluşunu təhlil etməli, onların sırasından ən vacib olanlarını seçməlidir;

- alqı-satqı müqavilələrində nəzərdə tutulmuş həcmdə əmtəələrin alınması və çatdırılması imkanlarını dəqiqləşdirməli və daim diqqət mərkəzində saxlamalıdır;

- əsas diqqətini cari dövrdə ölkə üçün vacib olan əmtəələrin idxalının həcminin artırılmasına, ölkədə daxilində istehsalı mümkün olan əmtəələrin idxalının isə, azaldılmasına yönəltməlidir.

• Bəhreyn, Liviya, Mavritaniya, Yəmən dövlətləri ilə idxal əlaqələrinin inkişafı və sabitləşdirilməsi üçün mükün variantları nəzərdən keçirməli, bu dövlətlərdən yalnız ən zəruri əmtəələrin idxalına üstünlük verməlidir.

• son illər Azərbaycanın BƏƏ, Əlcəzair, İordaniya, İraq, Livan, Liviya, Misir, Oman, Qətər və Səudiyyə Ərəbstanı ilə ixrac əlaqələrində fasilələrin olmadığı nəzərə alınmaqla bu dövlətlərin idxal bazarlarındakı mövqelərini qoruyub saxlamaq, sabitləşdirmək və genişləndirmək üçün Azərbaycanın aşağıdakı istiqamətlərdə tədbirləri həyata keçirməsi məqsədəuyğun olardı:

- ərəb bazrlarının idxala olan tələbatının əmtəə çeşidi, bazarların tutumu, bu bazarlara ixrac imkanları haqqında lazımi məlumatların toplanması üçün müvafiq bazarlarda məqsədli marketinq tədqiqatları aparmaq;

- ərəb bazrlarının idxala olan tələbatını nəzərə alaraq ixracın əmtəə quruluşunun təkmilləşdirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirmək;

- milli şirkətlərin ixrac imkanlarının genişləndirilməsi üçün onlara dövlət tərəfindən subsidiyalar vermək.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı elmi əsərləri dərc edilmişdir:**


1. Nəsibova L.M. Kimya müəssisələrinin transformasiyasının yeni iqtisadi şəraitə uyğunlaşdırılması. "Korporativ idarəetmə və iqtisadiyyatın innovasiya inkişafı" Beynəlxalq EPK-ın materialları. Bakı, Elm,2011. səh. 419-420.

2. Nəsibova L.M. Xarici iqtisadi əlaqələrin mahiyyəti və formaları. "Kooperasiya" elmi-nəzəri jurnal, № 1, (36 ), 2015, səh.126-131.

3. Nəsibova L.M. Xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi. "Kooperasiya" elmi-nəzəri jurnal, № 2, ( 37), 2015, səh. 198-203.

4. Насибова Л. М. Внешнеэкономическая и нефтяная деятельность государство Катар. AMEA - nın Xəbərləri İqtisadiyyat Seriyası. Bakı 2013, № 4, səh.250-252.

5. Насибова Л.М. Роль внешней торговли в экономическом развитии Иордании. AMEA – nın Xəbərləri İqtisadiyyat Seriyası. Bakı 2014, № 3, səh 33-36

6. Насибова Л.М. Состояние и направления улучшения внешнеторговых связей Азербайджана с арабскими странами. Журнал «Экономист» Института Экономики и Прогназирования НАН Украины. 2015.№ 3, стр. 33-36.

7. Насибова Л.М. Перспективы развития внешнеэкономических связей Азербайджана с Египтом. Журнал «Экономист» Института Экономики и Прогназирования НАН Украины.2015 № 5, стр. 33-35

**Насибова Лятифа Магоммед кызы**

## Перспективы внешнеэкономических связей между Азербайджаном и арабскими странами.


## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, выводов и предложений, приложения и списка использованной литературы.

Во введении обоснована актуальность выбранной темы, приводится состояние её изученности и исследования в республике, сформулированы цели и задачи, обоснованы теоретические и методологические основы, практическая значимость и научная новизна исследования.

**В первой главе** «Теоретико-методологические основы организации и регулирование внешнеэкономических связей» рассматриваются теоретические основы организации внешнеэкономических связей, роль и значение внешнеэкономически х связей в развитии национальной экономики, принципы и особенности государственного регулирования внешнеэкономических связей.

**Во второй главе** «Существующее состояние и особенности внешнеэкономических связей Азербайджана с арабскими странами» на основе большого статистического материала, используя методы сравнительного, системного, математико-статистического анализа, аналитического обобщения анализируется правовые механизмы внешнеэкономических связей Азербайджана с арабскими странами, определяется место и роль арабских стран во внешнеэкономических связях Азербайджана, исследуется товарная структура и особенности внешнеторговых связей Азербайджана с арабскими странами.

**В третьей главе** «Направления улучшения внешнеэкономических связей Азербайджана с арабскими странами» приведены направления совершенствования механизмов организации и регулирования внешнеэкономических связей с арабскими странами, а также перспективы развития внешнеэкономических связей Азербайджана с арабскими странами,В заключительной части работы даны выводы и предложения, полученные в результате проведенного исследования.

**Nasibova Latifa Mohammed**

**The prospects of improvement of foreign economic relations between Azerbaijan and the Arab countries.**

## SUMMARY

The dissertation consists of an introduction, three heads, conclusions and findings, the appendix and the list of the used literature.

In introduction relevance of the chosen subject is proved, the condition of its study and research in our republic is given , the purposes and tasks are formulated, theoretical and methodological bases, the practical importance and scientific novelty of research are proved.

In the 1st chapter, named " Theoretical and methodological bases of the organization and regulation of foreign economic relations", the theoretical basis of the organization of foreign economic relations, the role and value of foreign economic relations in the development of national economy, the principles and features of state regulation of foreign economic relations, are explained.

In chapter 2 "The existing state and features of foreign economic relations of Azerbaijan with the Arab countries" on the basis of huge statistical material, using methods of the comparative, system, mathematical and statistical analysis, analytical generalization, legal mechanisms of foreign economic relations of Azerbaijan with the Arab countries, the place and a role of the Arab countries in foreign economic relations of Azerbaijan are defined, the commodity structure and features of the foreign trade communications of Azerbaijan with the Arab countries is investigated.

In the 3rd chapter, "The directions of improvement of foreign economic relations of Azerbaijan with the Arab countries" are given the ways of improvement of mechanisms of the organization and regulation of foreign economic relations with the Arab countries

In the final part of the work are given conclusions and recommendations resulting from the study.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
УНИВЕТСИТЕТ НЕФТИ И ПРОМЫШЛЕННОСТИ**

***На правах рукописи***

**НАСИБОВА ЛЯТИФА МАГОММЕД КЫЗЫ**

# ПЕРСПЕКТИВЫ ВНЕШНЕЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И АРАБСКИМИ СТРАНАМИ

**Специальность: 5304.01- Виды экономической деятельности**

**А В Т О Р Е Ф Е Р АТ**

**диссертации на соискание ученой степени
доктора философии по экономике**

**Баку - 2016**